*Cari ilin birinci yarısının yekunları*

# GORANBOY: SOSİAL-İQTİSADİ UĞURLAR ÜRƏKAÇANDIR



**Goranboy Rayon İcra Hakimiyyətində 2017-ci ilin birinci yarısının yekunları və qarşıda duran vəzifələrə həsr olunmuş geniş iclas keçirilmişdir. Goranboy Rayon İcra Hakimiyyətinin başçısı Nizaməddin Quliyev respublikada gedən zəngin və uğurlu inkişafdan, rayonda aparılan abadlıq-quruculuq işlərindən, yeni layihələrin icrasından söhbət açaraq qeyd etdi ki, əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuş məqsədyönlü iqtisadi strategiya Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir.**

2017-ci ilin birinci yarısının yekunu ilə bağlı görülmüş işlərin təhlili göstərir ki, Goranboy rayon iqtisadiyyatının inkişafındakı artım dinamikası davam etmişdir. Eyni zamanda rayonda tikinti-quruculuq və abadlıq işləri sahəsində işlər uğurla aparılmışdır. Belə ki, rayonda tikinti, abadlıq və quruculuq işləri 2017-ci ilin altı ayında da davam etdirilmişdir. Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin inzibati binasının tikintisi başa çatmaq üzrədir. Şəhid ailələri və Qarabağ əlilləri üçün 5 ədəd fərdi yaşayış evi tikilir. Dəliməmmədli-Muzdurlar-Qırıqlı avtomobil yolunun tikintisi Dövlət Proqramına salınmış, işə başlanılmışdır.

37,75 km uzunluğunda Goranboy-Yuxarı Ağcakənd avtomobil yolunun yenidən tikintisi ilə bağlı cənab Prezidentin müvafiq sərəncamları ilə ayrılmış vəsaitlər hesabına yolun 34 km hissəsinə asfalt-beton örtük salınmışdır. Yolun tikintisinin başa çatdırılması üçün 2,2 milyon manat əlavə vəsait ayrılmış və bu işlər yaxın vaxtlarda yekunlaşacaqdır.

Goranboy şəhərində 22 ədəd çoxmənzilli yaşayış binası vardır. Möhtərəm Prezidentimizin tapşırığına əsasən birinci rübdə bu binalardan 12-sinin təmirinə başlanılmış, artıq şəhərin M.Məhərrəmov küçəsi 15 saylı binanın dam örtüyü dəyişdirilərək müasir görkəmə salınmışdır. Goranboy şəhərində 9, Dəliməmmədli şəhərində isə 2 binanın giriş blokları əsaslı təmir edilmişdir.

Rayonun yaşayış məntəqələrində də abadlıq-quruculuq işləri aparılır. Əvvəlki illərdə olduğu kimi yerli icma və qeyri-hökumət təşkilatlarının maliyyə dəstəyi ilə yerli əhəmiyyətli problemlərin həlli ilə bağlı layihələrin icrası davam etdirilmişdir. AzKİL təşkilatı tərəfindən uzunluğu 12,3 km olan Ağamalıoğlu-Baxçakürd-Dəyirmanlar avtomobil yolu, həmçinin Qaradağlı kəndində 15,2 km kəndarası yollar yenidən qurulmuş, bu kəndlərdə 6 ədəd dayanacaq quraşdırılmışdır.

Bütövlükdə ilin birinci yarısının sosial-iqtisadi göstəricilərində müsbət dinamika müşahidə olunmuşdur. Sənaye məhsulunun ümumi həcmi 23,2 faiz, tikintiyə qoyulan investisiya 2,4 dəfə, əsas kapitala yönəldilən investisiyalar 2,6 dəfə artmış, 5 min 916 iş yeri açılmışdır ki, bunun da 226-sı daimidir.

Ötən il olduğu kimi bu il də möhtərəm Prezidentimizin tapşırığına əsasən aztəminatlı əhalinin məşğulluğunun təmin edilməsi məqsədilə iş yerləri açılmışdır. Ümumilikdə bunun nəticəsində rayon üzrə 329 nəfər, o cümlədən çoxmənzilli yaşayış binalarının təmiri ilə bağlı 150, kommunal sahədə 76 nəfər, digər sahələrdə isə 103 nəfər işlə təmin olunmuşdur. İşə qəbul edilmiş aztəminatlı ailələr bu diqqət və qayğıya görə möhtərəm Prezidentimizə minnətdardırlar.

Rayonun iqtisadiyyatının əsasını aqrar bölmə təşkil edir.

Cənab Prezidentin tapşırığı ilə son iki ildə strateji məhsul olan pambıqçılıq inkişaf etdirilir. Ötən il rayonda 2 min hektar, bu il isə 5 min hektarda pambıq əkilmişdir.

Təsadüfi deyildir ki, pambıqçılığın inkişaf etdirilməsi, bu sahədə ixrac potensialının artırılması və əhalinin məşğulluğunun təmin edilməsi məqsədilə Azərbaycan Respublikası Prezidentinin 13 iyul 2017-ci il tarixli sərəncamı ilə "Azərbaycan Respublikasında pambıqçılığın inkişafına dair 2017-2022-ci illər üçün Dövlət Proqramı" təsdiq edilmişdir.

Azərbaycan Respublikası Prezidentinin 14 iyul 2017-ci il tarixli sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında kənd təsərrüfatı kooperasiyasının inkişafına dair 2017-2022-ci illər üçün Dövlət Proqramı" isə nəinki pambıqçılığın, bütövlükdə kənd təsərrüfatının inkişafına ciddi təkan verəcəkdir.

Gəlirli sahələrdən biri olan tütünçülük də inkişaf etməkdədir. Bu il rayonun dağətəyi kəndlərində 6 hektarda tütün əkilmişdir. Artıq məhsul yığımına başlanmışdır. Ümid edirik ki, nəticə müsbət olacaqdır. Son iki ildə rayonda 5 hektarda fındıq bağları salınmışdır.

Möhtərəm Prezidentimizin tapşırığına əsasən Şəmkir maşın kanalının ikinci hissəsinin tikintisində işlər sürətlə davam etdirilir. Artıq kanaldan Dəliməmmədli şəhəri ərazisinədək su verilir. Bununla da kanal altında yerləşən 8 yaşayış məntəqəsində əkinlərin suvarma suyu ilə təminatı əsasən həll edilmişdir. Kanalın növbəti hissəsinin tikintisi də davam etdiriləcəkdir. Normal su təminatı isə iri fermer təsərrüfatlarının yaradılmasına təkan verəcək, məhsul istehsalını əhəmiyyətli dərəcədə artıracaqdır.

Eyni zamanda bu kanaldan yeni yaradılmış Aqroparka da su kəməri çəkilir. Respublika üzrə yaradılan 33 aqroparkdan biri olan bu müəssisəyə 4695 hektar torpaq sahəsi ayrılmışdır. Burada taxıl, pambıq, texniki bitkilər əkilməsi, meyvə bağlarının salınması, logistika mərkəzinin, emal müəssisələrinin və soyuducu anbarın tikilməsi nəzərdə tutulmuşdur. Artıq Aqroparkda infrastrukturun yaradılması istiqamətində xeyli iş görülmüşdür.

Aqroparkda 60 ha ərazidə 33 min ədəd nar, 3 min 500 zeytun, 3 min badam, 500 digər meyvə ağacları əkilmiş, əlavə 200 hektarda meyvə bağı salanacaqdır.

Aqroparkın fəaliyyəti rayonda məhsul istehsalına güclü təkan verməklə yanaşı, xeyli sayda yeni iş yerlərinin yaradılmasına səbəb olacaqdır.

Möhtərəm Prezidentimizin tapşırığına uyğun olaraq əhalinin enerji daşıyıcıları ilə təminatının yaxşılaşdırılması istiqamətində tədbirlər davam etdirilir. Dəliməmmədli şəhərində 40 meqavatlıq 110/35/10 yarımstansiyası tikilmişdir. Asiya İnkişaf Bankının maliyyə dəstəyi ilə "Azərişıq" ASC tərəfindən 22 yaşayış məntəqəsində 0,4 kv-luq elektrik verilişi xətlərinin SİB kabellə çəkilişi başa çatdırılmışdır.

Səmədabad kəndində 218 abonent təbii qazla təmin olunmuşdur. Hazırda Yolpaq, Yəhərçi Qazaxlar, Sarov və Goranlı kəndlərinin qazlaşdırılması başa çatmaq üzrədir. Yaxın günlərdə bu kəndlərə təbii qaz veriləcəkdir.

Yaşayış məntəqələrinin içməli su təminatının yaxşılaşdırılması istiqamətində də işlər davam etdirilir.

Möhtərəm Prezidentimizin "Əhalinin ekoloji cəhətdən təmiz su ilə təminatına dair əlavə tədbirlər haqqında" 17 mart 2017-ci il tarixli sərəncamına əsasən isə Veyisli kəndinə və Veyisli kəndi yaxınlığındakı məcburi köçkün qəsəbəsinə 7 km uzunluğunda içməli su xətti çəkilərək istismara verilmişdir.

Hesabat yığıncağında çıxış edənlər, Goranboyda aparılan yüksək abadlıq-quruculuq işlərindən, regionların sosial-iqtisadi inkişafı Dövlət proqramlarından irəli gələn vəzifələrin uğurla yerinə yetirilməsindən, regionlarda infrastruktur layihələrin həyata keçirilməsindən, kənd təsərrüfatı və heyvandarlıq məhsullarının istehsalından, vətəndaşların sosial-məişət və həyat tərzinin yaxşılaşması istiqamətində həyata keçirilən tədbirlərdən geniş danışaraq, göstərilən bu sonsuz diqqət və qayğıya görə ölkə başçısı cənab İlham Əliyevə öz minnətdarlıqlarını bildirdilər.

**Zabit XƏLİLOV,**
**"Respublika".**